**Qoşalı, Əkbər**. Qarabağın üç günü... / Ə. Qoşalı // Xalq qəzeti. - 2020. - 4 dekabr. - **№ 254**. - S. 4.

***Ali Baş Komandan, Prezident İlham Əliyevin başçılığı ilə şanlı ordumuz işğalçı Ermənistanın ardıcıl hərbi təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə bu il sentyabr ayının 27-dən etibarən əks – hücum əməliyyatlarına, sonra isə müzəffər yürüşə başladı. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu mühəndis - istehkam qurğularını, çoxgirişli "siçovul yuvaları"nı, dağatıcılığı üzrə xüsusi təlimlər görmüş, təbii istehkamlarda daldalanmış silahlı bölmələrini (digər qoşun növlərinə aid birliklərini), ümumən, Ermənistan silahlı qüvvələrini darmadağın etdi! Fədakar ordumuz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Şuşa şəhərini, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini, Kəlbəcər rayonuna aid strateji məntəqələri, o cümlədən Murov yüksəkliyini və başqa yerləri işğaldan azad etdi.***

Ümumilikdə, 44 günlük şərəfli, ləyaqətli əks-hücum dövründə 5 şəhər, 4 qəsəbə, 286 kənd, fərqli coğrafiyalarda yerləşən, dəniz səviyyəsindən müxtəlif yüksəkliklərə aid çoxsaylı strateji zirvəni düşmən işğalından azad etdik. Torpağımızın hər qarşı, hər daşımız-dağımız, tək ağacımız, boz çölümüz... bizim üçün əzizdir, doğmadır. Əlbəttə, ictimai fikir rəmzi və strateji anlamda bütün Qarabağın kilid şəhəri kimi Şuşanı qəbul edir, Şuşanı arzulayır, Şuşanı tələb edir, Şuşalı günlərə inanırdı! Şuşa inancını bizə məhz dövlətimiz, şəhidlərin qanını yerdə qoymayan ordumuz, müzəffər Ali Baş Komandanımız, tarixə müraciətimiz və böyük gələcəyə baxışımız aşılayırdı.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük önəm daşıyan, rəmzi və strateji məna kəsb edən Şuşa şəhərinin işğaldan azad edilməsi, "kim Şuşaya nəzarət edirsə, Qarabağa da o nəzarət edir" fikrini bir daha təsdiq və təsbit etdi. Şuşa Qarabağdır, Qarabağ Azərbaycandır! Azərbaycan türk dünyasıdır, türk dünyası tərəqqipərvər dünyadır!

Bəli, Şuşa Şuşadır – Şuşadan başqa Şuşa yoxdur. Şuşa həm tamamlayıcı hadisədir, həm də özünəxas başlanğıcdır. Heç təsadüfi deyil ki, Şuşamız azad edildikdən dərhal sonra – Bayraq Gününə təsadüf edən 9 noyabrda, cənab Prezident daha 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad olunması barədə müjdə verdi. Dostun da, düşmənin də tanış olduğu bu müjdənin əhatə etdiyi coğrafiya, relyef, kəmiyyət və keyfiyyət müjdənin əyarını göstərir.

Noyabrın 8-də, 9-da və 10-da baş verənlərin mahiyyətini daha yaxşı anlamaq üçün daha iki ünvandan reaksiyalara diqqət etmək önəmlidir. Biri, artıq "keçmiş işğalçı" deyə biləcəyimiz Ermənistanda baş verənlər, yazılanlar, pozulanlar, özlərinin özlərinə hədələri, narazıların, narahatların dövlət orqanlarına basqınları, ilkin talanlar, ilk bəyanatlar... özlüyündə çox şey ifadə edir. Ermənistan narahatdır, ermənilər narahatdır. Ermənistanda "bez pridel"dir, böyük xaosöncəsi titrəşimlər, təlatümlər baş verir... Hələ daha nələr olacağını Allah bilir. "Uğursuz

dövlət”di, nə desən edərlər. Başlarına dəymiş Azərbaycanın “dəmir yumruğu”ndan sonra ayılıblarsa, bəlkə bir az ağıllı davranalar. Onsuz da düz-əməlli işləməyən bir baş dəmir yumruqdan sonra daha da zay olubsa, yenə can onların, cəhənnəm onların, hallarına yanası halımız yoxdur...

21-ci əsrin 20-ci ilinin 11-ci ayının 8, 9 və 10-cu günlərinə münasibətdə, xüsusilə, 10 noyabra münasibətdə əvəzsiz qardaşımız Türkiyədən gələn reaksiyalar çox önəmlidir, qiymətlidir. Türkiyə dövlətinin üçtərəfli razılaşma Bəyanatına münasibəti aydınlaşdırıcı, müəyyənləşdirici, sabitləşdirici faktor kimi çıxış edir. Türkiyə Cümhurbaşqanı, Türkiyə Böyük Millət Məclisi başqanı, Türkiyə Xarici işlər naziri, Türkiyə Milli Müdafiə naziri və başqa rəsmilərin ən yeni açıqlamaları ictimaiyyətimizə bəllidir. Əvəzsiz qardaşımıza nə qədər tərif yağdırsaq, onu nə qədər vəsf etsək azdır! Yaşa, var ol, əziz Türkiyə!

Nə təvafüqdür ki, 10 noyabr qardaş Cümhuriyyətin qurucusu Qazi Mustafa Kamal Atatürkün əbədiyyətə qovuşmasının ildönümü günüdür. Atatürk 57 illik fiziki yaşamı boyunca türk millətinin, doğma Vətəninin müstəqilliyi üçün girdiyi hər mücadiləni hərbi və siyasi dühası ilə zəfərlə taclandırıb. Atatürkün “Sevinci sevincimiz, kədəri kədərimizdir” – dediyi qardaşı Azərbaycanın əlamətdar günüdür bu gün. O sevinc ki, bölüşdükcə çoxalır, o kədər ki, bölüşdükcə azalır...

Bəli, Şuşanın alınması, qəhrəman əsgərimizin mətin ayaq səslərinin Xankəndidə eşidilməsi Ermənistanı hərbi dirənişdən əl çəkdirdi, möcüzəyə inamdan daşındırdı. İşğalçı ölkənin bütün manevr imkanları çökdü, guya, “demokrat” Paşinyanın və hökumətinin gözünə qaranlıqlar çökdü, uğursuz dövlət dünya ictimaiyyətini aldatmaq taktikası ilə də dalana dirəndi. Erməni hiyləgərliyi məna və məzmununu, təsirini çox önəmli ölçüdə itirdi. Düşmən öz maksimalist tələblərinin girovuna və nəhayətdə qurbanına çevrildi. Ermənistanda ermənistanlılıq qalmayıb. Dağlıq Qarabağda erməni nüfuzu sabun köpüyünə dönüb, dünyada erməniliyin xışı yerə batmaz olub...

Azərbaycan və Rusiya prezidentləri, eləcə də Ermənistanın baş nazirinin imzaladığı Bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Ermənistan nə istəyirdi? Dağlıq Qarabağa müstəqillik – Azərbaycan torpaqlarında ikinci erməni dövləti qurmaq. Ermənistan, şəxsən Paşinyan “Artsax” adlandırdıqları qondarma “respublika”nı yalnız keçmiş DQMV hüdudları içində deyil, işğal edilmiş bütün Azərbaycan torpaqları üzrə şəkilləndirmişdi. Ermənistanın, şəxsən Paşinyanın Azərbaycana 1 kvadratmetr torpaq qaytarmaq fikri yox idi. Bu fikir yoxluğu çoxsaylı “siçovul yuvaları” ilə sabitdir. Nə qədərini məhv etdiyimiz, nə qədərini qənimət götürdüyümüz silahlar, hərbi texnika... zərərsizləşdirdiyimiz, sıradan çıxardığımız çoxsaylı şəxsi heyət... dağıtdığımız, yardığımız, sıfırladığımız səngərlər, xətlər, sığınacaqlar, tunellər... bizim olanları bizə qaytarmaq üçünmü təşkil edilmişdi, əcaba?!. Məhz “dəmir yumruq”la 44 gün başlarına döyə-döyə, iti qovan kimi qova-qova həyatı başa saldıq Ermənistan uğursuz dövlətinə də, ən uğursuz Baş nazirə də...

Məhz həmin Ermənistan, məhz “7 şərt” müəllifi Paşinyan, məhz “yeni müharibə, yeni ərazilər” tezisi ilə çıxış edən Tonoyan, bütövlükdə Ermənistan hərbi - siyasi rəhbərliyi Azərbaycan Prezidentinin dəfələrlə bəyan etdiyi öhdəlikləri, “vaxt

cədvəli”ni quzu kimi qəbul etdi. Aram Sarkisyan, nə bilim, II Qaragein filan... “Təslim olduğumuzu KİV-dən öyrəndim” kimi açıqlamalar verir. Özləri bilər, bir-biri ilə dartışsınlar, dalaşsınlar, barışa bilsələr də barışsınlar, artıq bir məna ifadə etməz. Paşinyan cəhənnəmə kiminlə gedəcəyini seçmə hüququnu özündə saxlayır: “Cəhənnəmə gedən özünə yoldaş axtarar”...

Hələ bir “şəhər komendantı” da vardı. Özünə görə keçilməz “Ohanyan xətti” çəkmiş Seyran Ohanyanı deyirəm. Adam general-polkovnikdi guya, “qalib ordu”ya rəhbərlik etmişdi... Bəlli oldu ki, bir şəhər komendantlığına da yaramırmış. Bir daha bəlli oldu ki, o və onun kimi digər erməni general - polkovniklərinin “güc”ləri başqa ünvanlardan “zaryadka” olunurmuş və budur, “şarj aləti” şəbəkədən ayrılınca, “ya söndürülüb ya da əhatə dairəsindən kənarda qalıb”lar...

...Əcdadların hərb bacarığı ilə çağdaş elektron hərbin yeniliklərini universal şəkildə birləşdirən və uğurla tətbiq edən Azərbaycan Ordusu dünya hərb tarixinə adını qızıl hərflərlə yazdı. Müharibə meydanında ağır məğlubiyyət alan Ermənistan ordusu cəbhədən uzaqlardakı mülki əhalimizə xain raket hücumları təşkil edərkən də, Azərbaycan Ordusu müharibədə öz qızıl ləyaqətini sonadək qorudu, necə deyərlər, birtərəfli centlmen savaş apardı.

Müharibənin siyasi-diplomatik meydanında baş verənlər də ibrətamizdi. Klassik erməni yalanlarının, erməni saxtakarlıq və etibarsızlıqlarının təkrarlanması müqabilində Azərbaycan Prezidenti Ermənistana, dünya erməniliyinə, erməni tərəfdarlarına əsl diplomatiya dərsi keçdi. Cənab İlham Əliyevin dünyanın 30 - a yaxın aparıcı media orqanına verdiyi yüksək və tarix ayarlı müsahibələri ümumdünya informasiya məkanında ölkəmizə qarşı olan hücumları darmadağın etdi, şüurlara təsir etdi, fikirləri dəyişdirdi.

Haqqında bəhs olunan birgə Bəyanatda “Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır” məzmunlu 5-ci bənd, Rusiya və Türkiyə sülhməramlılarının əraziyə gəlməsini ehtiva edir. Bu, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması ilə sinxron qaydada aparılacaq. Bir daha vurğulamaqda fayda var: Artıq “qoşunların təmas xətti” anlayışı yoxdur. Atəşkəs hal - hazırda Ermənistan və Azərbaycan silahlı qüvvələrinin yerləşmə məntəqələri ilə müəyyən olunur.

Xüsusilə vurğulamalıyıq ki, Azərbaycanın müzəffər Ali Baş Komandanı İlham Əliyev həmişə bildirirdi ki, münaqişənin həlli zamanında Türkiyə də iştirak etməlidir. Qardaş ölkə atəşkəs rejiminə nəzarət etmək üçün yaradılacaq birgə monitorinq missiyasında fəal yer alacaq. Gizlətməyin yeri deyil, Azərbaycan ictimai fikri Türkiyə hərbçilərinin prosesdə iştirakını Azərbaycanın maraqlarının əleyhinə hər hansı addım atılması qarşısında ən güvəncəli amil hesab edir. Başqa bir mühüm məqam, proses çərçivəsində Naxçıvanın mühasirədən azad edilməsi olacaq. Ermənistan ərazisi ilə Naxçıvan və Azərbaycanın digər rayonları arasında etibarlı dəhliz yaradılacaq. Aydındır ki, məğlub olan varsa, qalib olan da var. Məğlub olan kasıb Ermənistan ciddi itkilərin ağrısını hələ uzun müddət çəkəcəksə, qalib olan bizlər bütün sferalar və əməli fəaliyyət sahələri üzrə

üstünlüklərimizlə, qazanclarımızla daha üstün həyatımızı təmin edəcəyik. Azərbaycan Prezidentinin "Mən nəyi necə və nə zaman etməyi bilirəm" formulu ötən günlərdə bir neçə dəfə özünün ən parlaq ifadəsi ilə təcəlla etdi. Mən 10 noyabr Bəyanatına da məhz həmin formulla baxılmasını, dövlətimizə güvənilməsini alternativlərin ən yaxşısı hesab edirəm.

Azərbaycan bütövlükdə bölgədə yeni siyasi gerçəklik yaradıb. Bütün dünya aydın şəkildə gördü ki, Azərbaycan dövləti, xalqı heç vaxt məğlubiyyətlə barışmır və gec-tez öz tarixi, hüquqi, mənəvi haqlarına yiyələnməyi bacarır. Prezident İlham Əliyevin son 17 il müddətində yürütdüyü siyasət, həyata keçirdiyi strategiya torpaqlarımızın işğaldan azad olunmasının ən başlıca səbəblərindəndir. Hamı güclü dövlətin, güclü ordunun nəyə qadir olduğunu gördü. Yenə də görəcəklər...

**Dövlətimiz zaval görməsin! Bayrağımız uca olsun!**

***Əkbər QOŞALI***